XƏZƏR UNİVERSİTETİ KHAZAR UNIVERSITY 35

# DAİM YENİLİK VƏ MÜKƏMMƏLLİYƏ DOĞRU

## Giriş

Ötən əsrdə Azərbaycan xalqı böyük şücaət göstərərək, ilk modern dövləti olan cümhuriyyəti elan etmiş, ardınca 70 illik fasilədən sonra müstəqilliyinin bərpasına müvəffəq olmuşdur. Cümhuriyyətin elanı və müstəqilliyin bərpası öz növbəsində ali təhsil sistemində də inqilabi nəticələrlə yadda qalmışdır. Belə ki, ilk ali təhsil qurumu olan Bakı Dövlət Universitetinin açılması ali təhsil tarixində özünəməxsus bir hadisə kimi qəbul edilir.

Əsrin sonunda aparılan azadlıq mübarizəsi nəticəsində isə Azərbaycan xalqı müstəqilliyini bərpa etməyə müvəffəq olmuş və yeni bir mərhələni başlatmışdır. Belə ki, ali təhsil sistemində də yenilik zərurət idi. Bu mənada 18 mart 1991-ci ildə ilk ingilis dilli özəl ali təhsil qurumu – Xəzər Universitetinin təsisi inqilabi bir hadisə olmuşdur. Çünki Xəzər Universiteti Azərbaycanın inteqrasiya olmağı planlaşdıracağı çağdaş dünyanın prinsipləri rəhbər tutularaq yaradılmışdı.

70 illik Sovet təcrübəsi Azərbaycanı sadəcə siyasi olaraq deyil, təhsil nöqteyi - nəzərindən də dünyadan təcrid etmişdi. Sovetin anlayışını dəyişdirməyin ən yaxşı yolu təhsil sistemində, kurikulumda dəyişiklik edilməsi olmalı idi. Tamamilə yeni bir formatda yaradılan Xəzər Universiteti ilk gündən etibarən yenilikçi, şəffaf təhsil anlayışı təklifi ilə çıxış etmişdir. Bununla yanaşı, mümkün dəyişikliyi nəzərə alaraq, daimi yeniləşmə də hədəflər sırasında olmuşdur.

Xəzər Universitetinin yaradılması Azərbaycan xalqının köhnəlmiş sovet sisteminə qarşı akademik müstəvidə göstərilmiş inqilabi reaksiyası olmuş və uzun perspektivdə Azərbaycan ali təhsil sistemində yeni bir məzmun olaraq ortaya çıxmşdır. Xəzər Universiteti yarandığı ilk gündən etibarən tədris aparanlar və təhsil alanların məmnuniyyətini nəzərə alaraq, akademik azadlıq və bürokratik çevikliyi şüar kimi mənimsəmiş və institusional olaraq kimliyinin parçası halına çevirmişdir.

Xəzər Universiteti 18 mart 2026-cı ildə 35-ci ilini qeyd etməyə hazırlaşır. Bu yazı da Xəzər Universitetinin (ailəsinin) bir mənsubu olaraq bəndənizin nəzərindən Xəzər Universitetinin akademik portreti olaraq yazılmışdır.

## Qısa tarixçə və struktur

Xəzər Universiteti 18 mart 1991-ci ildə Nazirlər Kabinetinin müvafiq qərarı ilə yaradılmış ilk ingilis dilli özəl ali məktəb olmuşdur. Universitet məhdud imkan və az saylı tələbə ilə fəaliyyətə başlamasına baxmayaraq, artıq 90-cı illərin sonunda Azərbaycan ali təhsil sistemində yenilikçi, şəffaf, akademik azadlıq və bürokratik çevikliyi ilə özünəməxsus yerini qazanmışdı. “Xəzər”in yaranmasının, əslində, təsisçi Prof.Akad. Hamlet İsaxanlının uzun axtarışlarının nəticəsi olduğunu onun universitetin təsisinə dair qələmə aldığı və 3 dildə nəşr edilən “Xəzər”in sorağında” kitabından

öyrənirik. Eyni zamanda, Prof.Akad. Hamlet İsaxanlının həyat yoldaşı mərhum Nailəxanım İsayeva da universitetin təsisi və quruculuğu prosesindəki rolunu və Xəzər Universiteti "Dünya" məktəbinin təsisindəki rolunu da öyrənmiş oluruq. Nailəxanım İsayevanın vəfatından sonra universitet magistr və doktorantura pilləsində xanım namizədlər üçün beynəlxalq təqaüd programını elan etmişdir. Şadam ki, bu programın ilk məzunu Brilliant Windy Khairunnisa məhz Siyasi elmlər və fəlsəfə departamentinin magistrantı olaraq, yüksək nəticə ilə məzun olmuşdur.

Beləliklə, "Xəzər"in ərsəyə gəlməsində, inkişafında əməyi olan Nailəxanım İsayevanı, elə bu yaxınlarda itirdiyimiz Tarix və arxeologiya departamentinin ilk müdirlərindən olmuş Dos. Roza Arazovanı və digər üstad həmkarlarımızı rəhmətlə yad edirik. Ruhları şad olsun!

"Xəzərin sorağında" kitabını oxuduqca iki nüans diqqətimi çəkdi. Belə ki, Hamlet müəllim xüsusilə ABŞ universitetləri başda olmaqla çağdaş universitetləri tədqiq edir və öyrənir. Lakin Bakıda bir ABŞ universiteti təsis etmək əvəzinə özünün ifadə etdiyi kimi "*yerli tədqiqat ənənələrindən və elmi potensialdan tam bəhrələnmək üçün, beynəlxalq əməkdaşlığa, bəşəri və milli dəyərlərin, nailiyyətlərin gözəl sintezinə nail olmaq üçün "Xəzər" tipli ali məktəblərin daha məqsədəuyğun və çevik olduğuna inanıram*". İkinci nüans isə universitetin tədqiqat və təhsil yönündən inkişafı məsələsini vurğulayarkən, universitetdə vəzifə tutan adamların bəzən özlərindən daha yaxşı göstəricilərə sahib alimlərin cəlbində qısqanclıq göstərib göstərməyəcəkləri ilə bağlıdır. Prof.Akad. İsaxanlı bu məsələ ilə bağlı yazır:

"*Ən güclü alimlərin universitetə cəlb edilməsinə nail olmaq lazımdır, lakin mənim bu fikrimi ətrafımdakı yoldaşlarım sözsüz bəyənib, həyata keçirməyə çalışacaqlarmı? Görəsən yarış və rəqabətə üstünlük verməyə, özünə bərabər və özündən daha fəal alimləri dəvət etməyəmi qüvvə sərf edəcəklər, yoxsa öz yerlərini "isti" etməyə, əsasən "baş üstə" deyənləri işə cəlb etməyə?*"

Yuxarıdakı iki nümunə Xəzər Universitetinin bugünkü uğurunu və fərqini anlamaq üçün əhəmiyyətlidir.

Bu gün isə tələbə sayı 5 mini aşmış və tələbələrinin 65 faizi dövlət hesabına təhsil alan yüksək ballı tələbələrdən ibarətdir. Tələbələrinin 10 faizi əcnəbilərdən ibarət olan "Xəzər"in beynəlmiləlləşmə strategiyasına uyğun olaraq bu say artmaqda davam edir. Buna müvafiq olaraq dünyanın müxtəlif ölkələrindən 80-dən artıq universitet ilə tələbə mobilliyi üçün əməkdaşlıq edilir. Universitet özündə 600-dən artıq təhsil verən professor - müəllim heyəti və tədqiqatçını ehtiva edir. Sadəcə, azərbaycanlılardan ibarət olmayan akademik heyətin sayı hər il artmağa davam edir.

Xəzər Universiteti hazırda Bakı şəhərində dörd müxtəlif kampusda fəaliyyətinə davam edir. Əsas və adminstrativ kampus Məhsəti 41 ünvanında yerləşən Nefçilər kampusudur. Digər kampuslar isə Bakıxanov, şəhər mərkəzində yerləşən Bəşir Səfəroğlu və Nərimanov kampuslarıdır.

## Akademik azadlıq və bürokratik çeviklik

Xəzər Universiteti qurulduğundan etibarən ingilis dilində təhsili seçmiş və beynəlxlaq əlaqələrin inkişafını strateji hədəf olaraq müəyyən etmişdir. Belə olan halda müəllimlərin mühüm bir hissəsi xaricdə təhsil alanlardan və qismən əcnəbilərdən ibarətdir. Bu isə öz növbəsində universitetin mədəni mühitinin mühafizə edilməsinə və daima yenilənmə hədəfinə xidmət edir. Digər tərəfdən, Xəzər Universitetinin sahib olduğu akademik azadlıq və bürokratik çeviklik xaricdə təhsil almış elm adamlarına çalışmaq üçün alışdıqları mədəni mühiti davam etdirəcəkləri bir ortam təklif edir. Beləliklə, universitetdə mövcud olan akademik azadlıq və bürokratik çeviklik məhsuldarlığa və inkişafa öz təsirini göstərir.

Akademik azadlıq universitetin inkişafında xüsusi rolu olan təşəbbüskarlığı təşviq edir. Məsələn, müəllimlərin tədris etməyi planlaşdırdığı fənnin sillabusunu hazırlayarkən, departamentlərin akademik heyətini formalaşdırarkən və akademik təşəbbüslərdə çağdaş dünyada konkret azadlığa sa-

hib olmaları köhnə sistemdən çıxmış Azərbaycan üçün bir yenilik idi. Bu hadisə bu gün üçün adiləşmiş ola bilər. Lakin belə bir yeniliyi yenicə müstəqillik qazanmış bir ölkənin 90-cı illəri çərçivəsində təxəyyül etdikdə "Xəzər"in Azərbaycan ali təhsil sisteminə, beləliklə yetişdirdiyi kadrlarla Azərbayan cəmiyyətinə töhfəsi daha aydın bir şəkildə ortaya çıxmış olur.

Misal üçün, Siyasi elmlər və fəlsəfə departamenti nəzdində təsis etdiyimiz Khazar Talks platformasının sonuncu qonağı Türkiyənin elit ali təhsil qurumlarından olan Galatasaray Universitetindən dəvət etdiyimiz Dos. Tolga Bilener oldu. Universitet rəhbərliyi təşəbbüsü dəstəkləməklə bərabər, bürokratik prosedurun da gecikmədən öz həllinə qovuşmasına dəstəyini əsirgəmədi. Beləliklə, Çinin xarici siyasətinə həsr etdiyimiz üçgünlük seminarı uğurla başa vurduq. Bu isə öz növbəsində akademik heyətə dinamizm, tələbələrə fürsət və universitet üçün yeni əməkdaşlıqlara imkan yaradır. Öz imkanları ilə ayaqda durmağa çalışan universitetin bu kimi akademik təşəbbüslərə dəstəyi uzun perskektivdə "Xəzər"in keyfiyyətinə və davamlılığına xidmət etmiş olur. Qısası, Xəzər Universitetində akademik azadlıq və bürokratik çeviklik təhsil verən və təhsil alanlara eyni zamanda şamil edilir.

Bu akademik azadlığı universitetin Elmi Şura iclaslarında da müzakirə etmək mümkündür. Təsisçi Prof.Akad. İsaxanlının "Xəzər"in sorağında" vurğuladığı kimi, "Xəzər" güclü tədqiqatçılardan mütəşəkkil olduqca güclü olub ayaqda qala bilər" fikrinə söykəndiyi üçün müzakirələr, bəzən tənqidlər də "Xəzər"in inkişafına töhfə verir.

## Tədris və tədqiqat

Tədrisin yenilənməsi öz növbəsində ölkəmizin gələcəyi olan gənc nəslin daha mükəmməl hazırlanması deməkdir. Hərçənd, günümüzdə universitetlər indeksli jurnallarda məqalə nəşrinə yönəlmiş olsalar da, tədris mühafizə edilməlidir. Bu mənada Xəzər Universiteti quruluşundan etibarən çağdaş modeli də istifadə etməklə tədris və tədqiqatı paralel şəkildə davam etdirməyi şüar olaraq qəbul etmişdir. "Xəzər"də tədrisin keyfiyyətinin ilkin şərtlərindən biri təhsil verən (müəllim) və təhsil alana (tələbə) müdaxilənin olmamasıdır. Belə ki, nəzarət edilməklə bərabər (dərslərin vaxtında başlaması və s.) müəllim və tələbənin azadlığına xüsusi diqqət yetirilir. Bu isə öz növbəsində uzun perspektivdə keyfiyyətli təhsilin ortaya çıxmasını şərtləndirir.

Məlum olduğu kimi, modern dünya elmi prinsiplər rəhbər tutularaq formalaşdırılmışdır. Bu çərçivədə tədrislə yanaşı tədqiqat da ali təhsil qurumları üçün strateji bir məsələdir. Bu günün şərtləri və tələbləri əsasında tədqiqatın nəticələri universitetlərin lokal və qlobal statusunun müəyyən edilməsində həlledici rola sahibdir. Ancaq Sovet təcrübəsindən sonra universitetlər çağdaş şərtlər çərçivəsində tədqiqat sistemini formalaşdırmaqda çətinlik çəkdi. Cəmiyyətin formalaşdırılması və davamlılığı üçün həlledici rola sahib olan sosial və humanitar elmlər sahəsində keyfiyyətli tədqiqatın formalaşdırılması isə demək olar ki, uzun müddət mümkün olmadı.

Xəzər Universiteti kurikulumda dövrün şərtlərinə uyğun yenilik edərək, texnoloji inkişafı da özündə ehtiva edən dərslər təklif edir. Məsələn, Siyasi elmlər və fəlsəfə departamentində magistr təhsil pilləsi üçün Azərbaycanda bir ilk olan "Geopolitics of Technology" fənnini açdıq. Bununla kifayətlənməyən unviversitet süni zəka ixtisası da təklif etməyə başladı.

Xəzər Universiteti yarandığı ilk gündən etibarən tərkibindəki elm sahələri üzrə keyfiyyətli tədqiqatın aparılmasını da prioritet olaraq qəbul etmişdir.

Sosial və humanitar elmlər sahəsi də qətiyyən nəzərdən qaçırılmamışdır ki, qaçırılmamalıdır. Çünki texnologiyanın dəyişdiyi varlığı anlamaq və durdğunuz yerdən reaksiya formalaşdırmalısınız. Bu isə siyasət, iqtidadiyyat, tarix, fəlsəfəni və s.-ni zəruri edir.

Bu mənada Azərbaycanda sosial və humanitar elmlər sahəsində qlobal indeksə (Web of Science elmmetrik bazası) daxil olan ilk jurnal "Khazar Journal of Humanities and Social Sciences" məhz

Xəzər Universiteti Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı tərəfindən təsis edilmişdir. Son yenilik və əməkdaşlıqlar nəticəsində jurnal artıq qlobal Elsevier şirkəti ilə əməkdaşlıq etməyə başlamış və jurnalın Scopus elmmetrik bazasına daxil olması kimi strateji addım atılmışdır. Jurnal Azərbaycan Elm və Təhsil Nazirliyi tərəfindən dəstəklənən jurnallar arasına daxil edilmişdir. Bununla bərabər, universitetin Azərbaycan arxeologiya jurnalı müvafiq əmrlə KJHSS-nın tərkibində tarix bölməsi kimi fəaliyyətinə davam edir. KJHSS jurnalı ilə yanaşı Khazar Journal of Science and Technology jurnalı da öz fəaliyyətini davam etdirir. Hər iki jurnal Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən qəbul edilmiş jurnallardır Bununla yanaşı, 30 ildən artıqdır ki, Xəzər Universitetinin təhsil və tədris fəaliyyətini işıqlandıran aylıq "Xəzər-Xəbər – Khazar Review" jurnalı da qeyd edilməlidir. Bu jurnal ölkənin akademik hərəkətlilik baxımından ən aktiv universitetinin fəaliyyətini işıqlandırır və heç şübhəsiz, gələcək tədqiqatlar üçün mənbə rolunu oynayacaqdır.

Qısası, Xəzər Universiteti tədrislə yanaşı tədqiqata da öz töhfəsini verməyə davam edir və Elm və Təhsil Nazirliyi tərəfindən tədqiqat universitetləri arasına daxil edilən ilk və tək özəl universitetdir.

## Elm və sənət məclisi

Elm və Sənət Məclisi xüsusi əhəmiyyətli elmi yeniliklərin ictimaiyyətə təqdim və müzakirə olunduğu elit bir platforma kimi universitetin təsisçisi və ilk rektoru Prof.Akad. Hamlet İsaxanlı tərəfindən təsis edilmişdir. "Elm və Sənət Məclisi"ndə Azərbaycan və dünyanın müxətlif yerlərindən tədqiqatlarının yeniliyi ilə diqqət çəkən elm adamları dəvət olunaraq, araşdırmalarını tədqim etmək imkanı yaradılır. İndiyədək 83 belə məclis keçirilmişdir.

Hələ özüm tələbə ikən Türkiyənin tanınmış fəlsəfə tarixçilərindən Prof. Əhməd Arslanın Elm və Sənət Məclisində Azərbaycan elm ictimaiyyəti tərəfindən maraqla qarşılanan mühazirəsini dinlədiyimi xatırlayıram. Burada sözün əsl mənasında bir müzakirə ənənəsi yaradılıb.

## Son söz əvəzi

İlk ingilis dilli və özəl universitet olaraq Azərbaycan ali təhsil sistemi üçün yeni məzmun təklif edən Xəzər Universiteti prinsiplərinə sadiq qalaraq daim yenilik şüarı ilə 21-ci əsrdə də öz yerini mühafizə edəcəkdir. Doğma universitetin doğum gününü təbrik edir və daha böyük yenilik və uğurlar arzu edirəm.

**S.e.ü.f.d. Dos.**
**Orxan Vəliyev**

*Siyasi elmlər və fəlsəfə departamenti müdiri, Xəzər Universiteti Məhsəti, 41, Nefçilər Kampusu, Bakı, Azərbaycan,*

*2026*

